# Siyasət Elminə bir Baxış

**Müəllif**: Əliəsğər Nüsrəti (Iran)[1],
Mərdan Zalov (Azərbaycan)[2]

**Alınan tarix**: 11/05/2016 **qəbul tarixi**: 01/04/2017

## Abstrakt

"Siyasi sistem" in tərifində olan problem budur ki, onun məfhumu barəsində siyasi mütəfəkkirlər arasında vahid bir düşüncə mövcud deyil və bu məfhum "dövlət", "hökumət" və "siyasi rejim (quruluş)" kimi bəyan edilir. Bu problem siyasi sistemlərin bölgülərə ayrılmasında da mövcuddur. Ona görə ki, bəzi mütəfəkkirlər onu "dövlət", bəziləri də "hökumət" adı altında bölgülərə ayırmışlar. Bu məqalədə həmin məfhumlar arasında fərqlər qoyulmuş və onların hər biri üçün ayrıca təriflər verilmişdir.

**Açar kəlmələr:** siyasət, dövlət, hökumət, hakimiyyət

## "Siyasət" məfhumu

### Lüğəvi məfhum

"Siyasət" sözü Ərəb dilindəki "sasə-yəsusu" sözündən götürülmüşdür.

---

1. Müəllif: MA, İslam Azad Universiteti, Siyasi Elmlər Bölməsində (Mərkəzi Tehran şöbəsi), Tehran, İran, aan20166@yahoo.com
2. Tərcüməçi: Əl-Mustafa Beynəlxalq Universitetinin tələbəsi, Qum, İran, merdan_1983@mail.ru

Onun mənası farsdilli lüğətlərdə belədir: “Rəiyyət üzərində hökm sürmək, ölkənin işlərini idarə etmək, hökumət sürmək, hakimiyyət sürmək, hökumət, camaatın işləri ilə onların məsləhətinə uyğun olaraq məşğul olmaq, mülkiyyəti qorumaq, ədalət və adillik, hökmdarlıq, cinayət və cəza, mülkiyyət (hüdudlarını) hüquqlarını qorumaq, mühafizə və qorumaq, göstəriş və qadağalar, təlim-tərbiyə və ölkənin daxili və xarici işlərini idarə etmək.”[1]

İngilis dilində “siyasət” sözünün qarşılığı Yunan dilindəki "polisi" sözündən götürülmüş “policy”dir. Bu söz və ondan alınan sözlər Fars dilində aşağıdakı mənalarda tərcümə olunmuşdur:

1. Policy: Yəni, hərəkət xətti, istiqamət, siyasət, siyasətçilik, məsləhət, profesionallıq, tədbir və zirəklik.
2. Politic: Profesional, məsləhətçi, tədbirli, zirək, məsləhətyönlü, məsləhətlə yanaşı, tələb edən (tələbkar), doğruya yaxın, aqilanə və siyasətcil.
3. Polity: Hökumət quruluşu, cəmiyyət, millət və dövlət mənalarında qeyd edilmişdir.[2]

Ərəbdilli lüğətlərdə də “siyasət” sözü müxtəlif mənalarda işlənmişdir.

---

1. “Fərhənge farsiye Muin və luğətnameye Dehxuda”.
2. Həyyim, “Fərhənge bozorge engilisi-farsi”.

Məsələn: "Əl-Qiyamu ələş-şəyi bima yəsləhu" (Hər bir şeyi onun (nəzərdə tutulan şeyin) məsləhəti istiqamətində bərpa eləmək), "Felus-sais" (heyvanların əhlilləşdirilməsi),[1] "İstislahul-xəlqi bi irşadihim ila ət-təriqil-munciyyi fil-acili əvil-əcəl" (hazırda və ya gələcəkdə camaatı qurtuluş və səadət yoluna yönəltməklə onların yaxşılığını istəmək), "fənnul-hokmi və idarətu əmalid-dövlətid-daxiliyyə vəl-xariciyyə" (hakimiyyət (siyasət) fənni və bir dövlətin daxili və xarici fəaliyyətlətinə rəhbərlik (müdriyyət)).[2]

- **Terminoloji məfhum**

İlk öncə təriflərin insanların məsələ və fenomenlərə yanaşma tərzi və eyni zamanda, tərif edənin hiss və idrakına tabe olaraq meydana çıxması kimi mühüm bir mətləbə diqqət yetirmək lazımdır. Bəzən hansısa bir məsələdə dünya görüşü və maraqların fərqliliyindən müxtəlif tariflər bəyan edilir.

Bu fərq və müxtəliflik ictimai fenomen və məsələlər sahəsində daha əhatəli və çoxdur. Başqa sözlə, insanın bilik sistemi onun həssasiyyət və əməllər sistemindən ayrı deyil, əksinə onların üçü də bir-birinə bağlı şəkildə və mütənasib sistemlə dəyişiklik və təkamül yolunu keçir.

1. "Əl-Muncid".
2. "Lisanul-ərəb".

Beləliklə, insanın xarici aləmlə elmi və nəzəri rabitəsi vasitəsiz və onun həssasiyyət və əməlləri ilə rabitəsiz olaraq formalaşmır və belə bir rabitənin nəticəsi qəlbi bağlılıq, nikbinlik və bədbinlik və ən zəif mərhələdə onun rəftarından təsirlənmiş olan yeni məfhum və dərk edilən şeylərin yaranması olacaqdır.[1]

İctimai prizmadan da məfhum və təriflər sisteminin etiqad və inanclardan təsirlənməsi aşkarcasına hiss olunmaqdadır. Günümüzdə ictimai şəraitdən uzaq və qapalı mühitdə olan, öz vaxtını tədqiqat və yeni kəşflərə sərf edən bir alim və tədqiqatçını nadir halda tapmaq mümkündür.

Ehtiyaclar cərəyanı və ictimai maraqlar sisteminin elm və araşdırmalar üfüqünün gələcəyində həlledici rolu vardır və tədqiqat marağının hətta araşdırma və tədqiqat mərkəzlərində belə yalnız axtarış və elmi sevmək ruhiyyəsi, başqa sözlə desək, “elm xatirinə elm” ilə olması təsəvvürü sadəlövhcəsinə olan bir təsəvvürdür.

Müasir dövrdə tədqiqat müəssisələri onların varlığı və ictimai sistemdə mədəni, siyasi və iqtisadi hədəf və məqsədləri həyata keçirmək baxımından yaranan ehtiyacın ardınca cəmiyyətin çatışmamazlığını həll etmək və ictimai hərəkat qanununu hazırlamq vəzifəsini öz öhdəsinə götürmüşdür.

---

1. Allahın Rəsulu (s) buyurur: حبک للشیء یعمی ویصم “Sənin bir şeyə nisbətdəki məhəbbətin sənin həmin şeyin eyiblərini görməmən və eşitməməyinə səbəb olur.” (“Bihar”, c.77, səh. 164.)

Həmin səbəbdən, üsul və müqəddimə məsələlərin təsis edilməsindən tutumuş münasib metodun seçimi və məhsul istehsalı, hətta istehsalın həcmi və yeni rabitələrin kəşfinə qədər elm və tədqiqatların inkişafı ümumi meyllərdən təsirlənmiş və planlaşdırılmış, həmçinin, müəyyənləşdirilmiş hədəflərə tabedir.

İctimai təmayüllərin dəyərləndirilməsinin əsas meyarı Allaha pərəstiş və ya dünya və onun maddi ləzzətlərinə pərəstişdən ibarətdir. Əlbəttə, bəzi cəmiyyətlərdə də ictimai təmayüllər mütləq şəkildə deyil, əksinə bu iki məsələnin müxtəlif nisbətlərindən ibarət olan mürəkkəb şəkildə formalaşır. Nəticədə, terminlər, məfhum və təriflər təmayül və hədəflərin beşiyində doğulur və həmin maraq və hədəflərə tabe olaraq müxtəlif şəkillər (formalar) alır.

Bu minvalla, bir qayda olaraq, humanitar elmlərə məxsus olan , xüsusilə də, başlıqlar və külli, aidiyyatı olan terminlərlə bağlı vahid bir tərif əldə etmək mümkün olmur. Ona görə ki, hər bir fərd xüsusi dünya görüşü və təmayülə münasib olaraq mövzunu tərif və bəyan etməyə çalışır.

Beləliklə, geniş yayılmış olan tərif və məfhumlar onlar arasındakı ixtilaf və ziddiyyətlərə baxmayaraq, məlumat və tanışlıq üçün təqdim edilir və seçilmiş olan tərif kitaba hakim olan düşüncə sisteminə mütənasib şəkildə oxuculara təqdim olunur.[1]

---

1. Bu kitab tədriq məqsədi üçün nəzərdə tutulduğundan, müxtəlif təriflərin düz və ya yanlışlığı barədə aşkarcasına hökm yürütməkdən daşınılmışdır. Ona görə ki, birincisi, birprizmalı nəzər salmaq və elmi senzura ilə ittiham olunmayaq. İkincisi, elmi tədqiqatçılarda müəllim və tədrisə ehtiyacsızlıq hissi yaranmasın və daimi olaraq tədqiqat ruhiyyəsi və toplu şəkildə elmi fəaliyyətlər daha da artsın.

Siyasətlə bağlı əhatəli bir məfhum təqdim etmək qeyd edilən məsələlərdən istisna deyil. Beləliklə, burada təriflərin müştərək və külli (ümumi) xüsusiyyətlərinə istinad edərək siyasətin ümumi və xüsusi məfhumunu bəyan etməyə çalışacağıq.

## Siyasətin ümumi tərifi

Siyasətin ümumi məfhumu aşağıdakı kimidir:

> "Rabitələr, mədəniyyətlər və iqtisadiyyat toplusuna (məcmusuna) ictimai inkişafı gözəlləşdirmək baxımından elmi və praktiki şəkildə rəhbərlik və onların idarə edilməsi."

Bu tərifə siyasətin tərifindəki aşağıdakı ünsür və vasitələr qeyd edilə bilər:

> Siyasətin əsas diqqəti işlərin qaydaya salınmasında iradə və qüdrətin tənzimlənməsi və istifadəsini zəruri edən idarəçilik və himayə mövzusu ilə bağlıdır. Əlbəttə, hər bir işdəki himayə üç mərhələni ötməklə həyaka keçir:

Müəyənləşmə məthələsində pozulmayan və yerinə yetirilməsi zəruri olan metod müəyyən edilir.

1. İctimai məsələlər rabitələr, iqtisadiyyat və mədəniyyətdən ibarət olan üç böyük qrup əsasında bölgülərə ayrılır və ümümi mənadakı siyasət bütün bu məsələlərin idarə edilməsi ilə mükəlləfdir.
2. Sistem şəklində nəzərdə tutulan cəmiyyət müxtəlif hədəflərin tərkibinin nəticəsi, cəmiyyətin strukturları və böyük və kiçik ictimai sahələrdən ibarətdir və onunla əlaqədar və son hədəflərə malikdir.

3. Hər bir cəmiyyət öz nəzərincə, inkişaf və tərəqqi ardıncadır və siyasətin nəticəsi də inkişafin müqəddiməsi və cəmiyyətin təakmülünə zəminə yaratmağı genişləndirməkdən ibarətdir. Əlbəttə, müxtəlif cəmiyyətlərdəki inkişaf mədəniyyətlərin fərqliliyi baxımından müxtəlif mənalar kəsb edir.

İslam siyasətinin praktiki nümunəsi olan imam Xomeyni siyasətin tərifində həmin məzmunu ifadə eməklə, aydın, amma başqa ifadələrlə belə buyurmuşdur:

"Siyasət cəmiyyəti istiqamətləndirmək və yola yönəltməkdən, cəmiyyətin bütün mənafeyini, həmçinin, insanlar və cəmiyyətin bütün xüsusiyyətlərini nəzərə almaqla onları millətin, fərdlərin məsləhətinə olan istiqamətə yönləndirməkdən ibarətdir və bu peyğəmbərlərə xasdır. Başqaları bu siyasəti idarə edə bilməzlər. Bu məsələ yalnız ənbiya və övliyalara məxsusdur."[1]

İmam Xomeyninin siyasətin tərifi ilə bağlı söylədiklərinin xüsusiyyəti fərdlərin psixoloji, əqli, əməli yönləri, həmçinin, cəmiyyətin mədəniyyət, siyasət və iqtisadiyyatla bağlı olan bütün xüsusiyyətləri nəzərə alınaraq onların ictimai və fərdi məsləhət istiqamətinə yönəldilməsinin siyasətin son hədəfi kimi göstərilməsindən ibarətdir.

---

1. Ruhullah Xomeyni, "Səhifeye nur", c.13, səh. 218.

Buna əsaslanaraq ilahi elm mənbəyindən yararlanan ənbiyalar, ilahi övliya və din alimləri fərd və cəmiyyətin məsləhətindən agah olmaqla onları dünya və axirət xeyir və səadətinə tərəf yönəldirlər.

Əlbəttə, imam Xomeyninin üç növ siyasətin adını çəkməsini və şeytani və heyvani siyasəti islami siyasətin müqabilində qeyd etməsini nəzərə almaqla siyasətlə bağlı xatırladılan tərifi islami siyasətin tərifi saymaq və onun bu növdən olan siyasəti eynilə din hesab etməsini söyləmək olar.[1]

## Siyasətin xüsusi tərifi

Xüsusi məfhuma malik olan siyasət aşağıdakılardan ibarətdir:

> "İctimai təkamülü həyata keçirən hədəflərə nail olmaq üçün rabitələrlə bağlı olan məsələlər məcmusunun nəzəri və praktiki baxımdan idarə və himayə edilməsi."

Siyasətin bu tərifi onun ümumi mənasının əsas strukruru ünvanındakı tərifin kənarında mədəniyyət və iqtisadiyyat adlı iki böyük strukturla yanaşı işləndiyi zaman istifadə olunur.

Bu minvalla, xüsusi məfhuma malik siyasət daha çox rabitə rolunu oynayan və digər məsələlərlə əlaqə və bağlılıq zəminəsi yaradan məsələlərə şamil olur və "siyasi nəzəriyyələr", "qanun və müqərrəratlar", "təşkilatlar", "qurumlar" və "metodlar" qəlibində özünü göstərir.

---

1. Müraciət edin: "Səhifeye nur", c.13, səh. 217-218.

Siyasətə bu cür tərif verməklə hər bir cəmiyyətdə onları islah etmək prosesi, inkişaf və tərəqqisinin “iqtisadi fəaliyyətlər” adlanması imkanı vardır. Dərk olunan məsələlər, məfhumlar, təmayül və bağlılıqlar vardır ki, onların islah edilməsi, inkişaf və tərəqqi cərəyanı ümumilikdə “mədəniyyət” adlanır.

Nəticədə, elə rabitə və nisbətlər mövcuddur ki, imkanların məfhumlar, təmayüllər və onlar arasında həmahəngliyin (mütənasibliyin) bərqərar edilməsi ilə tərkib yaratma amili müəyyən cəhətdən bir istiqamətdədir və onların islah və genişləndirilmə cərəyanı “siyasət” adlanır.

Ümumi və xüsusi olmasından asılı olmayaraq, siyasətin tərifinə əsasən hər bir cəmiyyət və siyasi sistem mədəni qabiliyyət və qüdrətə, insani (mədəni və zehni) və fiziki qüdrtə (imkanlara) malikdir.

Cəmiyyətin rabitələrinin mütənasiblik qabiliyyəti bunların hər üçünün birləşməsinin nəticəsindən asılıdır. Beləliklə, siyasətdən mütləq şəkildə söhbət açıldığı zaman, misal üçün, onun dinlə rabitəsindən danışıldığında, daha çox onun ümumi və geniş məfhumu nəzərdə tutulur.

İmam Xomeyni dinlə siyasətin rabitəsi barədə buyurmuşdur: “Peyğəmbərlərin peşəsi siyasətdir və din insanları buradan hərəkətə gətirərək bütün milət və insanların məsləhətinə olan şeylərə doğru yönəldən həmin siyasətdir.”

Peyğəmbər (s) və imamlar (ə) həyatda olduqları zaman din və siyasətin məzhəri (aşkar olduğu yer) idilər və yol göstərmək, onun şəriət və hökmlərini bəyan etməklə camaatın siyasi və ictimai məsələlərinə diqqət yetirir və onu özlərinin dini vəzifəsi hesab edirdilər.[1]

## Siyasi mütəfəkkirlərin nəzərində siyasətin tərifi

Yuxarıda qeyd edilən iki tərifdən əlavə, siyasətlə bağlı bu ixtisasın nəzər sahibləri tərəfindən də çoxlu sayda təriflər təqdim edilmişdir ki, onları aşağıdakı bir neçə əsas prinsip ətrafında xülasə edə və bölgülərə ayıra bilərik:

1. Təriflərin bir qrupu siyasəti ictimai məsələlərin hamısına və ya bir qisminə rəhbərlik və onu himayə etməyi nəzərdə tutur. O cümlədən, Əflatun (Pluton) onu böyük cəmiyyətin, ölkə, millət, dövlətin idarə və bütün vətəndaşlar üçün daha çox xoşbəxtliyin təmin edilməsi hesab edir.[2]
2. O, belə deyir: "Rəhbərin vəzifəsi camaatı fəzilətlə yetişdirmək və hökumətin xüsusi əhəmiyyətli işi təlim verməkdir."[3]
3. Fransalı Reymon Aron müxtəlif (fərqli) məsələlərlə bağlı qərar qəbul etməyi "siyasət" adlandırır.[4]

---

1. "Səhifeye nur", c.13, səh. 218.
2. Əbülhəmd Əbdülhəmid, "Məbaniye siyasət", səh. 33.
3. Alim Əbdürrəhman, "Tarixe fəlsəfeye siyasiye ğərb", c.1, səh. 98.
4. Əli Babayi. Qulamırza və Ağayi, "Fərhənge ulume siyasi", Bəhmən, səh. 394.

Əbu Nəsr Farabi hökm vermək və tabe olmaq rabitəsi və yaxşı hökumətin xidmətlərini “siyasət” adlandırır. Onun nəzərincə, yaxşı hökumət onların sayəsində həqiqi səadətə nail olmağın mümkün olduğu işlərini, sünnə və idarəçilik xüsusiyyətlərini camaat üzərinə həyata keçirən hökumətdir.[1]

O, bu hökuməti “cahiliyyət hökuməti” və ya “cahiliyyət iqtidarı” adlandırdığı və təxəyyüli səadət icad edən hökumətin müqabilində yerləşdirir. İmam Məhəmməd Qəzzali siyasəti terminlə desək, dünya və axirətdə nicata səbəb sayılan “camaata doğru yolu göstərmək” kimi tərif edir.[2]

Kəvakibi siyasəti “cəmiyyətin aqilanə və hikmətlə idarə olunması metodu” hesab edir.[3]

Bu təriflərdə siyasətin əsas məğzi işlərin idarəsi və onları tənzimləməkdən ibarətdədir. Əflatunun (Pluton) nəzərində siyasətin əsas mühiti cəmiyyətdir və fərdlər üçün cəmiyyət əhəmiyyət kəsb edir və fərdlərin dəyəri dövlətə olan münasibətləri ilə ölçülür, fərdi azadlıq iqtidarın və cəmiyyətin asayişinin lehinə görməzdən gəlinir.

---

1. Əbu Nəsr Məhəmməd Farabi, “İhsaul-ulum”, səh. 108. Tərcümə: Hüseyn Xodyucəm.

2. Əbu Hamid Qəzzali, “İhyau ulumid-din”, c.1, səh. 55. Tərcümə: Müəyyiddin Məhəmməd Xarəzmi.

3. Seyid Əbdürrəhman Kəvakibi, “Təbiəte istibdad”, c.1, səh. 27. Tərcümə: Əbdülhüseyn Mirzə Qacar. Tənqid və düzəlişlər: Məhəmmədcavad Sahibi.

Xoşbəxtlik və cəmiyyətin siyasi hədəfinin fəziləti təlim formasında dövlət tərəfindən tədris edilir və tədris metodu ilə cəmiyyətdə ədalət bərqərar olunur. Əflatunun nəzərincə, ədalət cəmiyyətin icad etdiyi bir şeydir və onda hər kəs aid olduğu məqama malikdir və təmayül, həmçinin, təlimlərə uyğun olaraq ona münasib olan işlər yerinə yetirir.

Reymon Aronun tərifində siyasətin qərar qəbul etməklə bağlı əsas ünsürü cəmiyyətin işlərinin həlli və onları bir-birindən ayırmaqdan və çoxlu saydakı məsələlər üzərində dövlət tərəfindən həyata keçirilən siyasətdən asılıdır.

Siyasi məsələlərin fərqliliyi onun əhatə dairəsini genişliyindən və onun üstün səlahiyyət və qüdrət dairəsində dövlət kimi dayanmasından xəbər verir. Qərar qəbul etmənin nəticəsi mövzunun təyin edilməsində qərara alınma və iradənin istifadə olunmasından tutmuş hədəfin müəyyənləşməsi, quruluş və hərəkət (istiqamət) xəttinin tənzimlənməsinə və həmçinin, planlara şamil olmaqla geniş fəaliyyət səviyyəsini əhatə edir.

Amma ümumilikdə bu yanaşmaya əsasən, siyasət ümdə olaraq dəyişikliklər və icraetmədən ibarət olacaq və əgər fəaliyyətin səviyyələrini qəbul etmə müqəddiməsi, qərar vermə və icra olaraq nəzərdə tutsaq, qərar qəbul etmə müqəddiməsi siyasətin əhatə dairəsindən xaric olacaq.

Farabi və Qəzzali kimi İslam alimlərinin təriflərində hədəf ünsürü və idarəetmənin rolu tərifin əhatə dairəsini məhdudlaşdırması və yalnız müəyyən məsələləri önə çəkərək onların etiqadınca, nicat və qurtuluş yolu olmasına baxmayaraq, hissolunacaq şəkildə nəzərə çarpdırılmışdır.

Kəvakibinin siyasətlə bağlı tərifində iki ünsürə istinad edilmişdir. O, birinci tərifdə onu metod məfhumu hesab edir və belə olduğu halda, o, siyasəti planlaşdırma mərhələsi və tənzimləmə üsulu ilə məhdudlaşdırır və onu (siyasəti) icra mərhələsinə daxil etmir. İkinci tərifdə isə onun aqilanə olmasına təkid edilir.

Ağıl və şəriətin bir-biri ilə heç bir ziddiyyətə malik olmamasına və həqiqətdə ağılı ilahi peyğəmbərlər və onların şəriətinə tabe olmaqla araşdırılmasına baxmayaraq, Kəvakibinin təkidi aqilanə iradə və əhatəli hikmətə əsaslanır və onun təlaşı hökumət və siyasəti din və ilahi hökmlərin idarəsinin əhatə dairəsindən ayırmaqla bağlıdır.

1. Digər qrupdan olan təriflər siyasəti "qüdrət" mənasında tərif edir.

Fransa filosofu Bertrand Rassel "Qüdrət" adlı kitabında siyasəti haradasa qüdrətlə eyni hesab edir. Əlbəttə, onun nəzərincə, bu qüdrət hədəfin (və ya məqsədin) nişanələrini, yəni nəzərdə tutulan və istənilən (iradə edilən) şeyi meydana çıxarmaq kimi tərif edilir.[1]

---

1. Müraciət edin: Bertrand Rassel, "Qüdrət", səh. 217. Tərcümə: Nəcəf Dəryabəndəri.

Paris universitetinin sosiologiya müəllimi olan Bertrand Rassel daha aydın şəkildə təqdim etdiyi bir tərifdə siyasətin "qüdrət və nüfuzun istifadə edilmə köklərinin araşdırılması və öyrənilməsi (tanınması) olması" etiqadına malikdir. Bu tərifdə "qüdrət" sözün ümumi mənasında nəzərdə tutulmuşdur.

Belə ki, o, "qüdrət"in izahı ilə bağlı belə yazır: "Kim başqa birisini hansa bir işi yerinə yetirməyə və ya onu yerinə yetirməkdən çəkindirməyə məcbur edərsə, o, qüdrətdən istifadə etmişdir."[1]

Maks Veber siyasəti qüdrətdə şərik olmaq və dövlətlər və yaxud bir dövlətdəki qruplar arasında olmasından asılı olmayaraq, qüdrəti xüsusiləşirmək üçün nüfuz etməyə çalışmaq hesab edir.[2]

Yuxarıdakı bütün təriflərdə siyasət "qüdrət" mənasında bildirilməsinə baxmayaraq, onların (təriflərin) hər biri bir-biri ilə fərqlər malik olan qüdrətin müəyyən bir səviyyəsini nəzərə çarpdırır.

Rassel insanın istəklərinin həyata keçməsi üçün qüdrətdən –istər insanlar, istər digər varlıqlar və istərsə də, təbiətlə bağlı olsun– istifadə etməsini siyasət kimi qələmə verir.

Covnel qüdrətin istifadə edilməsi dairəsini insan münasibətləri ilə və Maks Veber isə onu dövlətlərin daxili və xarici münasibətləri ilə məhdudlaşdırır və yalnız dövlətlə münasibətdə – istər dövlətlərin bir-biri ilə, istərsə də, bir dövlət daxilindəki qrupların bir-biri ilə rabitəsində – qüdrətin istifadə olunmasını siyasət hesab edir.

---

1. Əbülhəmd, "Məbaniye siyasət", səh. 27.
2. Əli Əkbər Əmini, "Məcəlleye ittilaate seyasi eqtesadi", 11-ci say, səh. 29.

Ümumilikdə siyasətlə bağlı qeyd edilən ifadələr yalnız bu məfhumu əhatə edən məsələlərin yalnız bir qismini bəyan və təfsir edə bilər. Amma yönləndirmə və istiqamətlə bağlı əsas bir qismi isə nəzərdən qaçırılmış olur.

2. Üçüncü qrupdan olan təriflər siyasəti elm və məlumatla bağlı bir məfhum hesab edir.

Mak Aver "Camee və hokumət" (Cəmiyyət və hökumət) adlı kitabında simvolik şəkildə belə yazır: "Siyasət bizə kimin apardığını, nəyi apardığını, hara apardığını, necə və nə üçün apardığını öyrədən bir elmdir."[1]

Tehran universitetinin politologiya elmləri müəllimi Əbdülhəmid Əbülhəmd yazır: "Siyasət qüdrət münasibətlərinin bütün formalarını müxtəlif zaman və məkanlarda araşdıran və bu qüdrətin istiqamət və istifadə edilməsinin keyfiyyətini nəzərə çarpdıran bir elmdir."[2]

Əli Şəriəti fərqli ifadələrlə "siyasəti insanın mühit, cəmiyyət və özünün müştərək tale və həyatı və onda yaşadığı, həmçinin, asılı olduğu cəmiyyətə nisbətdəki agahlığından ibarət olduğunu" hesab edir.[3]

---

1. Mak Aver, "Camee və hokumət", səh. 29. Tərcümə: İbrahim Əli Kəni.

2. Əbülhəmd, "Məbaniye siyasət", səh. 29.

3. Əli Şəriəti, Tarixe ədyan, səh. 11, "Əncuməne İslamiye daneşcuyane daneşqahe sənəti" nəşriyyatı, hicri-şəmsi 1348-ci il.

Müsəlman və məşhur iranlı filosof Əbu Əli Sina deyir: "Siyasət əməli hikmətin qisimlərindən biridir və o, hansısa bir şəhər və ölkədə qarşılıqlı yardımlaşma, növün davamiyyəti və fərdlərin yaşayışının rifahı prinsipinə əsasən toplanmış olan (yaşayan) camaatın məsləhəti ilə bağlı elmdir və o, iki qismdir.

Birincisi, mülkiyyət və hakimiyyətə aiddir ki, onu “siyasət (politologiya)” elmi adlandırırlar və ikincisi, asimani şəriət, ilahi hökmlər, peyğəmbər və ilahi övliyaların göstərişləri ilə bağlı olan şeylərdir ki, onu nəvamis (mənəviyyət) elmi adlandırırlar.[1]

Bütün bu təriflərin hamısının yalnız siyasətin elmi xüsusiyətini bəyan etməsindən əlavə, Mak Aver mənfəəti siyasətin əsası hesab edir. Halbuki, xidmət göstərmək, fədakarlıq və yol göstərmək də siyasətin digər inkarolunmaz xüsusiyyətləridir.

Əbülhəmdin tərifi də siyasətin düzgün tərifinin bir çox üstünlüklərinə malik olması ilə yanaşı, bir növ insani (humanist) və qeyri-insani (qeyri-humanist) münasibətlərin ona (tərifə) əlavə edilməsindən də yararlanır.

Həmçinin, Əli Şəriətinin irəli sürdüyü tərifdə o, siyasəti bütün ictimai elmlər hövzəsinə aid etməklə siyasətlə digər elmlər arasındakı fərqin çox az olduğunu göstərir. Bundan əlavə, “agah olmaq” ifadəsi insana batini və fərdi şəkildə yanaşmadan söhbət açır.

---

1. Əbu Əli Sina, “Qanun”, c.2, səh. 194.

Sonda Buəli Sina da siyasəti ümumilikdə məsləhətlə bağlı olan elm kimi tanıtdırmasına baxmayaraq, növlərin bəyanı məqamında onu hökumətin idarə olunması və səltənət elmi hesab edir.

3. Təriflərin digər qrupu siyasəti kütləvi və ictimai həyatın ehtiyaclarını əhatə edən bir məfhum hesab edir.

Belə ki, Robert Dall deyir: "Siyasət bəşər həyatının qaçılmaz həqiqətlərindən biridir. İnsanlar zamanın hər anında bir növ, siyasi məsələlərlə üzləşirlər."[1]

Unsur Əl-Mali Keykavus ibn Vəşmgir "Qabusnamə"də siyasəti padşahın öhdəsində olan bütün vəzifələr hesab edir və padşahın mühüm vəzifələrindən birini əmr vermək kimi tanıtdırır və qüdrətin istifadə edilməsini siyasətin əsas məğzi olduğunu düşünür.[2]

Beləliklə, politologiya elmi alimlərinin vahid və əhatəli bir tərif üzərində fikir birliyinə malik olmamasını və təqdim edilən təriflərdən bəzilərinin məfhum baxımından bir-biri ilə həddən artıq fasiləyə sahib olmasını nəzərə almaq lazımdır.

---

1. Robert Dall, "Təcziyye və tərkibe cədide seyasət", səh. 1. Tərcümə: Hüseyn Zəfəriyan.

2. O, "Qabusnamə"də yazır: Beləliklə, padşah əmr verən deyilsə, o, padşah deyil. Belə ki, onunla digərləri arasında fərq olduğu kimi, əmr verməkdə də fərqlər olmalıdır, çünki soltanların mülkiyyət sistemi rəhbərlik etməyə (əmr verməyin) tabedir və hakimiyyət siyasətdən başqa, digər bir şeylə mümkün deyil. Nəticədə, siyasət yürütməkdə nöqsana yol vermək olmaz ki, əmirlər (tabelikdə olanlar) tabe olsunlar və peşələr nöqsansız olsun. ("Qamusnamə", səh. 232. Qulamhüseyn Yusifinin düzəlişləri ilə)

Həmin səbəbdən, İslamda siyasi sistemin bəyan və təhlil edilməsi məqamında siyasətə münasib tərifin verilməsi çətin olması ilə yanaşı, onun aşkarcasına zəruri olması da hiss edilməkdədir.

## “Siyasət (politologiya) elmi” məfhumu

Siyasət elminin tərifinin siyasətin tərifi ilə birbaşa bağlılığı vardır. Siyasət ümumi və xüsusi olmaqla iki şəkildə tərif olunduğu kimi, siyasət elmi də iki cür tərif edilir.

Siyasətin ümumi olması prinsipinə əsaslanaraq siyasət elmi “ondan istifadə etməklə xüsusi hədəfin həyata keçməsi üçün tərəqqi mühitinin daha da genişləndirilməsini mümkünləşdirən cəmiyyətin rabitə, iqtisadi və mədəni məsələlərinin məcmusunu idarə və himayə etməklə bağlı olan bir elmdir.”

Bu təriflə siyasət elmi müəyyən formada cəmiyyətin müxtəlif məsələlərinin idarə edilməsi ilə bağlı olan bütün elmlərə şamil olur. Amma siyasətin xüsusi tərifinə istinad edərək siyasət elminin tərifi aşağıdakı kimidir:

> “Ondan istifadə olunması ilə ictimai məsələlərin məcmusunu idarə və tənzim etmək üçün imkanı yaradan və rabitələrin inkişafı və ictimai məsələlər arasındakı münasibətlərin islah edilməsinə səbəb olan bir elmdir.”

Bu təriflə siyasət elminin əhatə dairəsi müəyyən həddə daha da məhdudlaşır və ümumi tərifdən fərqli olaraq mövzu baxımında o, daha da müəyyənləşir.

Məktəblər, dünya görüşü və hədəflərin fərqliliyi siyasətin müxtəlif şəkildə tərif və təfsir (izah) olunmasına səbəb olduğu kimi, siyasətə tabe olan siyasət elmi məsələsinə də düşüncə və nəzəriyyələrin çoxluq və pərakəndəliyi yol tapmışdır ki, onların arasından siyasət elmi ilə bağlı çıxarılan aşağıdakı bir-neçə müxtəlif nəticəyə işarə etmək olar:

- **Dövlət və siyasi təşkilatlar haqqındakı elm**

"Aşinayi ba elm seyasət" adlı kitabda belə yazılır: Siyasət elmini dövlət elmi və ya teoriyalar, təşkilatlar və dövlətlətin fəaliyyətləri ilə bağlı olan ictimai elmlərə aid bir ixtisas ünvanında tərif etmək olar.

Daha geniş prizmadan yanaşdıqda, siyasi qüdrət əldə etmək və milli siyasətdə öz nüfuzunu genişləndirmək, həmçinin, ictimai dəyişikliklərə rəhbərlik etmək ardınca olan və az-çox dövlətdən ayrı qrupların, təşkilat və müəssisələrin fəaliyyətini də yuxarıdakı tərifə əlavə etmək olar.[1]

---

1. Rudi, Karlton Klaymer və Anderson, Tuton Ceymz və Kristol, Karl Kuimbi, Aşinayi ba elm seyasət, səh. 10. Tərcümə: Bəhram Məlәkuti.

- **Qüdrəti tanıma (qüdrətlə tanışlıq) elmi**

Siyasətin əsalətinə təkid edən Harold Lasvel[1], Çarlz Meryam[2], Maks Veber[3], Bertrand Rassel[4], Vatkins[5] və Hans Morganta[6] kimi tədqiqatçılar qüdrətin siyasətin əsas məfhumu olması və siyasət elminin bütün şaxələri ilə əlaqə yaratması etiqadına malikdirlər.[7]

Buna əsasən, siyasət və siyasət elmi təməli zəminədə cəmiyyətdə mövcud olan qüdrətin mənbə və nişanələri ilə məşğuldur və nəzəri və praktiki siyasət baxımından qüdrət ən mühüm amil olduğundan, qüdrətin tanınması siyasətin ən əsas vəzifəsi kimi nəzərə çarpdırılır.

Lasvelin siyasətin tərifi ilə bağlı söylədiyi kimi: "Siyasət elmi təcrübi bir sistem qəlibində olaraq qüdrətin hansı şəkildə formalaşmasının keyfiyyətinin öyrənilməsi və onda hansı paya malik olmasından ibarətdir və siyasi fəaliyyət qüdrət əsasında həyata keçən bir fəaliyyətdir."[8]

---

1. H. Lasswell.
2. Merriam
3. M. Weber.
4. B. Russell.
5. Watkins.
6. Hans Morgenthau.
7. Bonyadhaye elme seyasət, səh. 28.
8. Müraciət edin: Robert Dall, "Təcziye və təhlile cədide seyasət", səh. 1. Tərcümə: Hüseyn Zəfəriyan.

- **Siyasi fenomenlərin öyrənilməsi elmi**

Bəziləri Aristotelin siyasət elminin əsasını qoyduğunu və bu elm üçün xüsusi üslub, münasib bölgülərin ayrılması və xüsusi bir dili hazırladığını güman edirlər.

Ona görə ki, o, çoxlu sayda siyasi hadisə və xəbərləri ilk dəfə bir yerə toplamış olan kəsdir. Eyni zamanda, Aristotelin "Siyasət" kitabı həmin məsələlərə şamildir. Yəni, o, öz dövrünün əksər siyasi rejimlərini bu kitabda tədqiq obyektinə çevirmişdir.

Onun nəzərincə, siyasət əməli (praktiki) olaraq elmlər silsiləsin in başında yer tutur, çünki onun mövzusu hakimiyyətdir və siyasət elmi ölkəni formalaşdırmaq və ona və şəhərə rəhbərlik etməkdən ibarətdir.[1]

Əbülhəmd "Məbaniye seyasət" kitabının otuz birinci səhifəsində yazır: "Siyasət elmi siyasi fenomenlərin, dövlətin müxtəlif formalarının, hökumətin, qüdrət münasibətlərinin, onların hər birininn maddi, əxlaqi və etiqadi mənbələrinin müxtəlif zaman və məkanlarda araşdırılma və öyrənilməsi haqda olan və siyasi fenomenlər arasındakı rabitə və onların meydana çıxma səbəblərinin kəşfi, eyni zamanda, ölkə cəmiyyəti və beynəlxalq münasibətlərin öyrənilmə və araşdırılmasına çalışan bir emdir."[2]

---

1. Müraciət edin: Seyid Cəlaləddin Mədəni, "Məbani və kulliyyate ulume seyasi", səh. 34.
2. Əbülhəmd Əbdülhəmid, "Məbaniye siyasət", səh. 29.

## “Siyasi system” məfhumu

- **Tərif və xüsusiyyətlər**

Siyasi sistem bunlardan ibarətdir: “Tənzimin keyfiyyəti, hər bir insan cəmiyyətində istənilən tərəqqiyə nail olmaq üçün rabitə, mədəni və iqtisadi məsələlərin idarə edilməsi.”

Siyasi sistemlə bağlı qeyd edilən tərif aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Siyasi sistem proqram təminatı və proqramlaşdırma xüsusiyyətlidir və daha çox teoriyaya – əlbəttə, cəmiyyətin müxtəlif məsələlərinin tənzimlənməsinə diqqət yetirən əhatəli bir teoriyaya – yaxındır. Nəticədə, ümumi (külli) və qeyri-müəyyəndir.
2. Məkan və zamanla məhdudlaşmır. Yəni, xüsusi bir zamana məxsus deyil və onun müxtəlif zamanlarda həyata keçərək formalaşması mümkündür. Eyni zamanda, müxtəlif məntəqələr və cəmiyyətlərdə meydana çıxma qabiliyyətinə malikdir. Beləliklə, islami siyasi sistem müxtəlif islami cəmiyyətlərdə formalaşa bilər.

Əlbəttə, siyasi sistem real şəkildə formalaşması üçün bütün şərait və imkanlara malik olmaq mövzusuna istinad eləmir, əksinə onun həyata keçməsinin ilkin və ən aşağı mərhələsi onun proqramlaşdırma və ya teoriya baxımından var olasıdır.

Belə ki, İslamın Məkkədə zühur etdiyi ilkin illərdə islami dövlət və hökumətin olmamasına baxmayaraq, İslam siyasi sistemi özünün ilkin formasını əldə etmiş idi.

3. Nəzm və siyasi tənzimləməni formalaşdırmağa diqqət yetirən siyasi sistem mövzu baxımından siyasətin ümumi məfhumu ilə mütənasibdir.

Bu mənada ki, siyasi və rabitə məsələləri ictimai məsələlərin strukturu hesab edilməklə yanaşı, rabitə, iqtisadi və mədəni olmasından asılı olmayaraq cəmiyyətin məsələlərinin tənzim və idarə edilməsini, həmçinin, bu üç sahə arasındakı məntiqi rabitələrin yaradılmasını, əmtəə və siyasi idarəetmənin mahiyyətini əhatə edərək siyasi sistem qəlibində özünü nişan verir.

4. Qeyd edilən tərifdəki ictimai dəyişikliklərin hədəfi ünvanında təkamül kimi əhəmiyyətli məsələyə diqqət yetirməklə onun digər xüsusiyyəti anlaşılır.

Əlbəttə, hər bir xüsusi siyasi sistemin etiqad və məktəb baxımından təkamül, tərəqqi və səadəti necə tərif etməsini  nəzərə almaq lazımdır. Bəzən inkişaf və tərəqqi ilahi və insan xislətləri ilə bağlı olan dəyərlər, bəzən də başqa bir prizmadan dünyadan daha çox faydalanmaq, ləzzət almaq və maddi imkanlar baxımından tərif olunur.

Beləliklə, müxtəlif dünya görüşündə inkişaf və tərəqqi müxtəlif məfhum və mənalarla bəyənilən və siyasi sistemin hədəfi ola bilər. Sübhəsiz ki, siyasi sistem barədə mütəfəkkirlər tərəfindən çoxlu sayda, müxtəlif və bir-birindən fərqli təriflər də bəyan edilmişdir. Daha çox tanışlıq (məlumat) əldə etmək üçün onların bəzisinə işarə edirik:

Mütəfəkkirlərin əksəriyyəti "siyasi system" məfhumunu onun Qərb terminindəki qarşılığı olan "siyasi rejim (quruluş)" mənasında istifadə edir və deyir: "Siyasi sistem dövlət qüdrəti və siyasi, idarəetmə, iqtisadi, məhkəmə, hərbi, dini olmasından asılı olmayaraq bütün ümumi təşkilatlara və bu təşkilatların, qanun və onlara hakim müqərraratların keyfiyyətinə malik olan qəlib və formaya sahibdir."[1]

Marksın nəzərincə, siyasi sistem iki ünsürdən təşkil edilmişdir: Birincisi, siyasi rəhbərlərvə onlara mənsub məqamlar və ikincisi, təşkilat və dövlət müəssisələri.[2]

Maks Veberin əqidəsinə görə, siyasi sistem bunlardan ibarətdir: Ölkə və ölkə başçısı. Bu təşkilatın mərkəzi olan dövlət aparatı ölkədə hərbi qüvvələrin istifadə edilməsində qanuni inhisarın bir hissəsini təşkil edir. Buna əsasən, belə bir təşkilat qüdrət axtarışında olan qruplar üçün münasib zəminə yaradır.

---

1. Əbülhəmd, "Məbaniye seyasət", səh. 41.
2. Əhməd Pişavər, "Cameeşenasiye seyasi (Siyasi sosiologiya)", səh. 41.

Parsonz "siyasi sistemin hədəfə nail olmaq metodlarını diqqət mərkəzində saxlayan ictimai sistemin inhisarçı bir hissəsi olması" etiqadına malikdir. Onun etiqadına əsasən, təkmilləşmiş bir cəmiyyətdə təsirlər və ya siyasi sistemlə bağlı proseslər ciddi şəkildə əhəmiyyət kəsb edir.

Qüdrət bu təsirlərin ən mühüm nümayəndələrindən biridir və ümumi və simvolik bir vasitə olaraq dövriyyədə olan pul kimi inkişafetmiş cəmiyyətlərə öz fəaliyyətlərini primitiv cəmiyyətlərdən daha təsirli şəkidlə həyata keçirməyə imkan verir. Başqa ifadə ilə desək, qüdrət bir cəmiyyətin ümumi meyllərin təsiri altında seçilən hədəflər istiqamətində mənbələri hərəkətə gətirmə qabiliyyətidir. Həmçinin, qüdrət qərar qəbul etmə qabiliyyəti və məsuliyyətə səbəb olan qərarların seçilməsidir.[1]

Yuxarıdakı tərifdə diqqət yetirildiyi kimi, bəzən siyasi sistemin mövqeyi ölkə, bəzən dövlət və hətta hökumət, yəni inhisarçı olaraq qüdrət və informasiyadan istifadə qabiliyyət və haqqına malik olan icra aparatı mənasında və həmçinin, hədəfə nail olmaq üçün qabiliyyət və qüdrət mənalarında tərif edilmişdir. Eyni zamanda, onu "siyasi rejim" mənasında da istifadə etmişlər.

---

1. Əhməd Pişavər, "Cameeşenasiye seyasi (Siyasi sosiologiya)", səh. 41.

- **Siyasi sistemlə eyni qrupdan (kökdən) olan terminlər**

Siyasi sistem siyasi ədəbiyyatda oxşar söz və məfhumlarla məna olunduğundan, danışıq və yazılarda siyasi sistemin yerinə istifadə edilən bir neçə termin araşdırma mərkəzində dayanır ki, bu terminlərdən bəzilərinin digərlərinin yerinə işllədilməsini müşahidə edək və nəticədə bizim daha aydın şəkildə onları bir-birindən ayıra və siyasi sistemi aşkara çıxara bilməyimiz üçün zəminə yaransın və sonda bu məfhumları məntiqli şəkildə bölgülərə ayıra bilək.

Nəzərinizə çatdıracağımız terminlər aşağıdakılardan ibarətdir:

Dövlət, hökumət və ölkə.

**1. Dövlət**

Dövlət[1] bir mənada müəyyən və təyin edilmiş bir siyasi sistemdir. Yəni, hansısa bir siyasi sistem bir ölkə qəlibində xarici aləmdə həyata keçdiyi, hansısa bir cəmiyyətin mədəniyyəti, qabiliyyəti və siyasi iradəsi ilə mütənasib olaraq möhkəmlənib formalaşdığı və insan cəmiyyəti siyasi sərhədlər hüdudunda müəyyənləşdirmə və razılaşma yolu ilə inkişaf və səadətin müştərək tərifini əldə etdiyi zaman, müştərək mənfəət və taleyə malik olur, müştərək dost və düşmənlər qazanır və öz mənfəətlərini mühafizə etmək üçün həmfikir, həmkar və müttəfiq olur, vahid bir əl və mərkəzləşdirilmiş qüdrətə çevrilir.

---

1. Onun latın dilindəki qarşılığı "state"dir.

İşlərin idarə edilməsi və nəzərdə tutulan məsələləri tənzimləmək üçün vahid bir təşkilatı formalaşdırır və öz taleyi ilə bağlı müstəqil və inhisarçı hakimiyyət haqqını özü üçün qoruyub saxlayır. Digər dövlətlər üçün də bu haqqı rəsmi şəkildə tanıdığı kimi, nəticədə başqa dövlətlərin siyasi talelərinə müdaxilə etməklə bağlı məhdudiyyətə inanır.

Beləliklə, bu tərifə diqqət yetirməklə dövlətin əsil ünsür və amilləri aşağıdakılardan ibarətdir:

**a. Cəmiyyət**

Yeni dövlətlərdə, xüsusən də, on doqquzuncu əsrin sonlarından indiyə qədər millət qəlibində tərif olunur və beləliklə, siyasi cəmiyyət şöbələri və millət ünsürü bir-birindən ayrılmış və fərqləndirilmişdir.

İslamda bəşər cəmiyyətinə yanaşma daha çox etiqadi və məktəb yönlüdür və fiziki, irqi, qəbiləvi və dil xüsusiyyətlər daha az diqqət mərkəzində dayanır. Nəticədə, İslam ümməti hətta dövlətlər və siyasi bölmələrdən daha geniş mənada müsəlman icmasının tərifində xüsusi mövqeyə malikdir.

**b. Ölkə (ərazi)**

Yuxarıdakı tərifdə ölkənin kənarında yer almasının səbəbi ölkənin ən əsas xüsusiyyətinin onun coğrafi ünsürlərində gizlənməsi məsələsidir. Həmin səbəbdən, onu siyasi sistemin həyata keçdiyi yer seçirlər.

Beləliklə, razılaşma əsasında olan coğrafi sərhədlər müəyyənləşdirilmiş siyasi sistemləri və ya dövlətləri bir-birindən ayıran hesab olunur.

### c. Hökumət

Ondakı məqsəd dövlət daxilindəki icraedici orqanlardır (təşkilatlardır) və fərdlərin məcmusuna, məqam və cəmiyyətin işlərini tənzim və idarə edən orqanlara şamildir.

### d. Hakimiyyət

Yəni, ölkə hüdudları çərçivəsində mütləq şəkildə olan və məhudlaşdırılmayan və azadlıq kimi xatırlanılan toplu (ümumi) iradənin istifadə olunması haqqıdır. Sonuncu yüzillikdə beynəlxalq sistem şəklində formalaşmış dövlətlər bu təşkilatın bəzi hüquqlarını özləri üçün ləğv etmiş və onu dövlətdən daha əhatəli olan təşkilatların, terminlə desək, "Birləşmiş Millətlər Təşkilatı" (BMT), "Təhlükəsizlik Şurası" və digər beynəlxalq və regional təşkilatlar kimi beynəlxalq təşkilatların ixtiyarına vermişlər.

Başqa bir tərifdə yalnız icraedici qüvvəni "dövlət" adlandırmaq olar və bu tərifə uyğun olaraq hökumət dövlətlə müqayisədə aidiyyatı olan mövqedə yer tutur və dövlət hökumətin bəzi vəzifələrini öhdəsinə götürür.

Belə ki, əgər hökumət ölkə işlərinin tənzimlənmə və idarəetmə amilidirsə, dövlət birbaşa tənzimedicidir və hökumətlə yanaşı bu tənzimləmənin icraedici funksiyasını öhdəsinə alır.

Misal olaraq, İran İslam Respublikasının konstitusiyasından belə bir nəticə çıxarmaq olar ki, o, hökuməti dövlətə nisbətdə daha məhdud hesab etmiş və elə ilkin prinsip olaraq aşkarcasına belə bəyan etmişdir: "İran hökuməti İran millətinin haqqın, ədalət və Quranın hakimiyyəti ilə bağlı qədim zamanlardakı etiqadına əsasən, İslam inqilabının ardınca... ona müsbət rəy verdiyi islami respublikadır."

Əgər bu mətləb "İslam respublikası imana prinsipinə əsaslanan bir sistemdir." deyə bildirən ikinci maddə ilə müqayisə olunarsa, belə bir nəticə hasil olacq ki, İran hökuməti islami formaya malik olan sistemdir və bu mətləb dövlətin birinci tərifinə zəmanət verir.

Üçüncü prinsipdə islami respublikanın dövləti üçün sadalanan vəzifələrdən dövlətin bu bəyana əsasən, ölkənin rəsmi təşkilat və məqamlarına (vəzifələrinə) şamil olduğunu hesab etmək olar ki, bu da hökumətin tərifinə tətbiq edilir.[1]

Geniş yayılmış siyasi ədəbiyyatda dövlətlə bağlı pərakəndə və fərqli təriflər təqdim olunur. Onların aşağıdakı bəzi nümunələrinə işarə etmək olar:

Alen Beyronun onun üçün dörd mənanı qeyd etdiyi "ictimai elmlər lüğəti":

- Hökumət və siyasi sistem forması. Məsələn: Səltənət (padşahlıq) dövləti və respublika.

1. Hökumətin tərifi bəhsin davamında qeyd edilmişdir.

- Bir millətin hökumət və idarəetmə təşkilatı.
- Siyasi heyət ünvanında tanınan vətəndaşlar toplusu.
- Vahid bir siyasi hakimiyyətə tabe olan geniş bir ölkə.

Alen Beyro zehndə yaranan dövlətin məchul simasını daha da şəffaflaşdırmaq üçün əlavə edir ki, dövlət həqiqətdə yalnız qanunu, konstitusiya çərçivəsində hökuməti qorumaq, hamının tərəqqisi və səadəni (rifahını) yüksəltmək, ümumi nəzmi təmin və ümumi məsələləri idarə etməyin onun xüsusi vəzifəsindən ibarət olduğu siyasi formadır (quruluşdur).

Dövlət bir fərd və ya bir qrupdan ibarət olmayan ümumi mənafelərin təminində xüsusi ixtisasa malik olan bir hissə deyil, əksinə hansısa bir tənzimləyici aparatı formalaşdırmaq və istiqamətləndirmək üçün cəmiyyətin başında yer tutan və möhkəmlənməyi qəbul edən təşkilatların məcmusudur.[1]

İki amerika və ingiltərəli yazıçının müştərək işi olan digər "ictimai elmlər lüğəti"ndə onlar "dövlət" məfhumunu açıqlamaqla müxtəlif mənalar təqdim edirlər.

1. Alen Beyron, "Fərhənge ulume ictimai", səh. 404. Tərcümə: Doktor Baqir Saruxani.

O cümlədən, belə yazırlar: “Dövlət” termini müəyyən bir məntəqədə yaşayan və onların arasından seçilmiş olan çox az saydakı fərdlərin həmin qrupdan olan əhalinin fəaliyyətlərini real və ya qrupa məxsus təxmini mənafelər və zor tətbiq etməkdən yardım almaqla kontrol etmək intizarında olan bir əhali qrupuna işarə edir. Həmçinin, dövlət bir ölkədə yaşayan qrupun hakimiyyətindən ibarətdir.

Bu tərifdə “əhali”, “ölkə”, “hökumət” və “müstəqillik"dən ibarət olan dörd amil digər siyasi təşkilatlardan dövləti ayırıb fərqləndirmək üçün seçilmişdir. Bu amillər dövləti asılı istismarçılıq, katolik kilsəsi, Birləşmiş Millətlər Təşkilatı və arılar cəmiyyətindən fərqləndirmək üçün yetərlidir.” Sosiologiyanın bəyanı ilə desək, dövlət siyasi tərkibə (mürəkkəbliyə) malik olan millətin iradəsini ümumi mənafe əsasında formalaşdıran bir təşkilatdır.

Bu tərif belə bir düşüncəni formalaşdırır:

Birincisi, dövlətin zor tətbiq etmə qüdrəti bir növ millətin iradəsi ilə bağlıdır. İkincisi, millətin bir qayda olaraq müştərək mənafe və hədəfləri vardır. Kuleb və Vilsonun nəzərində dövlətlə cəmiyyəti fərqləndirməklə bağlı onların belə söylədiyini qeyd etmək olar: “Dövlət cəmiyyətin hamısı deyil, onun bir hissəsidir.”

Bəziləri dövləti hökumətdən ayırırlar. Məsələn: Balard "hökumətin dövlətin onun vasitəsi ilə əməl etməsinə etiqadlıdır." Vilson "hökuməti qanuni olaraq əllərində qüdrət olan bir qrup, amma dövləti həmin qrupun fəaliyyətini təyin və tənzim edən bir tərkib" hesab edir. Nəticədə, dövlətin hüquqi məfhumunu Hakelsonun dililə belə bəyan edir: "Dövlət qanuni bir sistemdir."[1]

### 2. Hökumət[2]

Bir dövlət öz hədəflərinə düzgün şəkildə təşkil olunduğu və əməl etmək üçün münasib bir nümunəni seçdiyi zaman öz hədəflərinə nail ola bilər. Rəftari nümunənin (meyarın) həyata keçməsi məsuliyyətini öz üzərinə götürən və cəmiyyətin himayə və itaət etmək funksiyasını xatırladılan təşkilatla təmin edən bu təşkilat və məmurlar hökumət adlanır.

Hər hansı bir cəmiyyətdə mövcud olan, davamlı olmaq istəyən və həmin cəmiyyətin üzvlərinin bağlılıq amili olan müştərək hədəflərə nail olmaq istəyən bir dövlət inkaredilməz bir zərurətdir.
Hətta, icbari dövlətin süqutunu istəyən anarxiya məktəbinin ardıcılları bir növ hakimiyyəti qəbul edir və camaatın özünün ikrah və məcburiyyət olmadan onu formalaşdırmasını tələb edirlər.

---

1. Quled Culyus və Kuleb, Vilyam.L, "Fərhənge ulume ectemai."
2. Onun latınca qarşılığı "Government"dir.

Beynəlxalq miqyasda kommunist cəmiyyətinin bərqərar edilməsindən sonra dövlətin istehlakçı xüsusiyyətə malik olacağı etiqadına malik olan kommunistlər belə, həmin cəmiyyətdə bir növ iqtidarın varlığını inkar etmirlər.[1]

Beləliklə, hökumət bunlardan ibarətdir: Fərdlərin məcmusu, məqamlar (rütbə və vəzifələr), ölkəni idarə etməkdə rol oynayan orqanlar. Bu tərifdə məqam və orqanlar qərar qəbul edən və icraçı olan amil və təşkilatlara, həmçin, icra aparatı məcmusundan kənar olaraq fəaliyyət göstərən fərd və təşkilatlar şamildir, lakin onların fəaliyyətinin mövzusu ölkə məsələlərinin idarə edilməsidir.

İran İslam Respublikasında ölkə məsələlərinin idarəetmə təşkilat və ya hökumət üzvləri aşağıdakılardan ibarətdir:

Sistemə (quruluşa), üçlük təşkil edən icra aparatı, qanunverici aparat və məhkəmə aparatına və onlardan asılı və ya tabe olan məclis və sair kimi təşkilatlara, eyni zamanda, cəmiyyətin qoşun və ordu və sair kimi təhlükəsizlik quruluşuna rəhbərlik.

Siyasi mütəfəkkirlərin nəzərində hökumət başqa mənalarda da istifadə olunur. O cümlədən, “Nəzəriyyehaye dovlət” adlı kitabda hökumətin müxtəlif mənaları üç mərhələdə bəyan edilmişdir:

---

1. Müraciət edin: “Bonyadhaye elme seyasət”, səh. 143.

Bir fərd və ya fərdlərin müəyyən bir zamanda cəmiyyətə hökmranlığı öhdəsinə götürməsinə hökumət deyilir. Həqiqətdə bu məna cəmiyyətdə qanunu təyin edən və onu bəyan edən kəslərə şamil olur.

- Hökumət qanunverici qüvvə müqabilindəki icraedici qüvvəni ifadə edən günümüzdəki hökumət mənasını ifadə edir. Bu mənada birinci mənadan fərqli olaraq şəxslər mövzunun əsasını təşkil etmir, əksinə icraedici orqanlar qanunun icra edilməsinə zamin durmaq və onun təmin olunması ilə məsuldurlar.
- Hökumət qanunu təyin və icra edən siyasətçilər qrupuna şamildir. Bu mənada hökumətin məcmusu məhdudlaşaraq yalnız nümayəndələr və ya partiyalar daxilindəki kabinetin üzvləri, yaxud kabinetin əsas özəyini, yaxud da, ehtimalən təkcə baş nazir və ya prezident şamil olmaqla kiçik bir qismi əhatə edir.[1]

### 3. Ölkə

Ölkə ərazi, cəmiyyət və hakimiyyət meyarları daxilində siyasi sistemin formalaşdığı yerdir. Yəni, coğrafi sərhədlər, hakimiyyətin hüdudları və müstəqilliyi müəyyən edən ərazidən əlavə, cəmiyyət sərhədi və ya başqa bir ifadə ilə desək, bu sərhədin bariz tabeçiliyində olan milliyyət, qövm və ümmət kimi məsələlərə şamil olur.

---

1. Müraciət edin: Andryu Vinsent, "Nəzəriyyehaye dovlət", səh. 55-56. Tərcümə: Hüseyn Bəşiriyye.

Bu xüsusiyyətlər bir ölkəni digərindən fərqləndirib müəyyən edən xüsusiyyətlərdir. Günümüzdə siyasi ürfdə ölkə fiziki bir vahid ünvanında onda qüdrətin silsiləvi mərhələlərini müşahidə etməyin mümkün olduğu ən əsas siyasi mərkəzdir.

Ölkə müxtəlif təşkilatları əhatə edir və bir qayda olaraq, beynəlxalq cəmiyyətdə siyasi bir vahid kimi tanınır və ölkənin var olması ilə siyasi bir cəmiyyətin daxili və xarici məsələlərin idarə edilməsinin təşkili və hökumətə malik olan rabitələrin bərqərar edilmə qaydası və siyasi sistem növü məna və məfhum kəsb etmiş olur.

Keçmişdə bütün bu məfhumların yerinə "dövlət" kəlməsi istifadə olunurdu. Belə olduğu halda, dövlətdə məqsəd icraedici orqan və nazirliklər deyildi, əksinə beynəlxalq arenada siyasi bir vahidi ifadə edirdi. Lakin dövlət tərəfindən yuxarıda xatırladılan müxtəlif məfhumlar səbəbi ilə "ölkə" sözündən istifadə edilirdi. Amma bu sözlərin bəzisini nəzərdə tutulan məfhumları çatdırmaqda yetərsiz hesab edir və nəticədə, "dövlət-ölkə" ifadəsindən istifadə edirlər.

Ölkə məfhumunun real şəkildə gerçəkləşməsi üçün bəzi ünsürlərə ehtiyac vardır və yalnız həmin ünsür və amillər bir yerə toplandığı (birləşdiyi) halda ölkə tanınavə müəyyən oluna bilir. Bu amillər aşağıdakılardan ibarətdir:

Cəmiyyət, ərazi və hökumət.[1]

---

1. Mədəni, "Məbani və kulliyyate ulume seyasi", səh. 289.

Bir ölkəni təşkil edən ilkin əsas amil daimi olan bir cəmiyyətdir. Ona görə ki, heç bir məkanı cəmiyyətsiz olduğu halda, ölkə adlandırmaq olmaz. Əlbəttə, müəyyən bir zamanda hansısa bir ölkədə yaşayan bütün fərdləri də həmin ölkənin cəmiyyəti hesab etmək olmaz.

Əksinə, yalnız həmin ölkənin tabeçiliyində olan kəsləri o ölkənin cəmiyyətindən saymaq olar. Beləliklə, müxtəlif ünvanlarla, məsələn, təhsil, ticarət, istehsal, müalicə, ziyarət, səyahət, sığınacaq və bunun kimi adlarla hansısa bir ölkədə olan kəslər üzunmüddətli və ya daimi məskunlaşmağa malik olmalarına baxmayaraq, həmin ölkənin vətəndaşlığını əldə etməyənə qədər yadelli (xarici) hesab olunurlar.

Bəzən ölkənin cəmiyyətinə "millət" ünvanı da şamil olur və bu, ölkəni təşkil edən əksəriyyətlə müəyyən bir qrup arasında həmahəngliyin meydana çıxdığı, istək və arzuların bir-birinə qarışdığı, adət-ənənə, metod və dil müştərəkliyi onları bir-birnə bağladığı və onların ölkənin hər yerinə yayıldığı (hər yerdə məskunlaşdığı) zaman baş verir.

Əlbəttə, bəzən bir millət hansısa bir ölkənin ərazil hüdudları ilə xülasələnmir, əksinə bir neçə ölkə vahid bir milləti təşkil edə bilər. Məsələn, vahid bir millət olan ərəblər çoxlu saydakı ölkələrdə pərakəndə olmuşlar. İslamda milli bağlılıq yaradan ünsür "din"dir və ondan formalaşan məcmu "ümmət" adlanır.

Bir ölkənin möhkəmlənməsi üçün ikinci amil ərazilərin olmasıdır və ona yerin, dəniz və havanın müəyyən bir hissəsi şamildir ki, həmin hüdudlarda ölkənin hakimiyyəti həyata keçir. Heç bir ölkəni ərazisiz təsəvvür etmək mümkün deyil. Belə ki, əgər hansısa bir ölkənin cəmiyyəti hansısa bir dəlilə əsasən, o ölkəni tərk eləsə və pərakəndə olaraq bir məntəqədə yaşasa, ərazi ünsürünün aradan qalxması səbəbi ilə onlar ölkə təşkil edə bilməz.

Ölkəni meydana çıxaran üçüncü ünsür ali qüdrət və ya hakimiyyətdir. Ali qüdrət bir ölkənin əraziləri hüdudlarında ən üstün hesab olunan qüdrətdir və o, öz qüdrətini başqa bir məqam və cəmiyyətlərin heç birindən kəsb etməmiş və digər bir qüdrətin nəzarəti, himayəsi və əmri altında olmamışdır. Ölkə hakimiyyətdən istifadə edə bilməsi üçün iqtisadi qüdrət, hüquqi imkanlar, maddi məsələlər, hərbi qüvvələr və döyüş təchizatı kimi müxtəlif vasitələrdən istifadə edir.[1]

- **Xülasə və nəticə**

Siyasi sistemlə bağlı bəhsdə onlar üçün münasib tərifin irəli sürülməsinə zərurət duyulan ən mühüm məfhumlar aşağıdakılardan ibarətdir:

---

1. Ölkə barəsində daha geniş məlumat əldə etmək üçün müraciət edin: Mədəni, "Məbani və kulliyyate ulume seyasi", səh. 287-324.

Siyasət, siyasət elmi (politologiya), siyasət elminin digər elmlərlə rabitəsi, siyasi sistem və onun bəzən "siyasi sistem"in yerinə istifadə edilən dövlət, hökumət və ölkə kimi terminlərlə rabitəsi.

Terminlər adətən, eyni sözlərlə istifadə edilməsinə baxmayaraq, onlar məfhum baxımından müxtəlif mənalardan yararlanırlar və bunun səbəbini dünya görüşü və düşüncə sisteminin fərqliliyində axtarmaq lazımdır.

İslam münəzzəm bir düşüncə (ideologiya) sistemi ilə öz ardıcılları üçün siyasi sistem və onun məfhumi stukturları barəsində digər məktəblərdən fərqli olan təhlillər təqdim edir. Beləliklə, İslamla uyğun olan siyasətə tərif vermək istədiyimiz zaman, yaxşı olar ki, bir sıra cəhətləri nəzərə alaq.

O cümlədən: Hədəfə malik olmaq və axirətyönlülük, vilayət və rəhbərlik, əhatəlilik, insan və cəmiyyətin təkamül hərəkəti, iradə və ixtiyar, həqiqətlərə diqqət yetirmək və təşviq və tənbehin tərbiyəvi rolu. Bu xüsusiyyətlərlə mövzunun əhatə dairəsinin genişliyi ilə bağlı ümumi və xüsusi olmaqla iki növ tərif əldə edə bilirik.

Siyasət məfhumunun bəyanı (izahı) tamamilə siyasətlə bağlı verilən tərifə əsaslanır və siyasət elmi insan maarifi və insan biliyi ilə rabitə mənzuməsində formalaşdığı üçün, məcburən rabitə növü və onun digər elmlərə fayda vermək, yaxud onlardan faydalanmaq mizanını müəyyən etmək zəruridir.

Biz burada xatırladılan elmlərlə siyasətə məxsus olan rabitənin ardınca deyilik və eyni zamanda, digər elmlərin siyasətlə əsla bağlılığının olmadığını da söyləmirik, əksinə xatırladılan elmlərin daha çox və daha aşkar şəkildə siyasətlə rabitəyə malik olduğunu vurğulayırıq. Həmçinin, siyasətin riyaziyyat, ekologiya, ədəbiyyat, incəsənət və sairə kimi elmlərlə rabitəsini asanlıqla inkar etməyin mümkün olmadığını bildiririk.

Bu minvalla, siyasi sistemin tərifində siyasətin tərifindən, məsələlərin tənzimlənmə keyfiyyəti və idarəetmə üslubu, siyasət mövzusunun üçlük təşkil edən rabitə, iqtisadi və mədəni məfhumundan faydalanma xüsusi diqqət mərkəzində dayanır və təkamül ünsürü və onun varlığına şamil olan iradə aşkarcasına nəzərə çarpır.

Bəhsimizin sonunda digərlərinin siyasi sistem və onu dövlət, hökumət və ölkə kimi məfhumlarla eyni hesab etməsi ilə bağlı irəli sürdüyü təriflərlə təqdim etdiyimiz tərifləri müqayisə etmək və fərqləndirmək məqsədi ilə bu üç terminin bəyan edilməsi nəzərdə tutulmuş və bu araşdırmanın kənarında siyasi sistem çərçivəsində onların hər birinin məfhumi yeri müəyyən edilmişdir.

## Mənbələr


1. Alim Əbdürrəhman, “**Tarixe fəlsəfeye siyasiye ğərb**”, c.1, səh. 98.
2. Andryu Vinsent, “**Nəzəriyyehaye dovlət**”, səh. 55-56. Tərcümə: Hüseyn Bəşiriyye.
3. Əbu Nəsr Məhəmməd Farabi, “**İhsaul-ulum**”, səh. 108. Tərcümə: Hüseyn Xodyucəm.
4. Əbu Hamid Qəzzali, “**İhyau ulumid-din**”, c.1, səh. 55. Tərcümə: Müəyyiddin Məhəmməd Xarəzmi.
5. Əbülhəmd Əbdülhəmid, “**Məbaniye siyasət**”.
6. Əli Babayi. Qulamrza və Ağayi, “**Fərhənge ulume siyasi**”, Bəhmən.
7. “**Fərhənge farsiye Muin və luğətnameye Dehxuda**”.
8. Mədəni, “**Məbani və kulliyyate ulume seyasi**”, səh. 289.
9. Ölkə barəsində daha geniş məlumat əldə etmək üçün müraciət edin: Mədəni, “**Məbani və kulliyyate ulume seyasi**”.
10. Seyid Əbdürrəhman Kəvakibi, “**Təbiəte istibdad**”, c.1, səh. 27. Tərcümə: Əbdülhüseyn Mirzə Qacar. Tənqid və düzəlişlər: Məhəmmədcavad Sahibi.